Əsail Ağayev



# Şeirlər, İthaflar, Nəsihətlər

Bakı-2008

ƏSAIL AĞAYEV

# ŞEİRLƏR, İTHAFLAR, NƏSİHƏTLƏR

Bakı - 2008

Redaktor:

**Atəş Abdullayev**

**Ə.Ağayev**
*Şeirlər, ithaflar, nəsihətlər*

Kitabçaya 2001 – 2008 ci illərdə qürbətdə qələmə aldığım şeir, ithaf və nəsihətlər daxildir.

Kitabça çox sevdiyim doğmalarım, dostlarım və yaxından tanıdığım mötəbər tanışlarım üçün nəzərdə tutulmuşdur.

# MÜƏLLIFDƏN

Tale məni hansı diyara atırsa-atsın, hər yerdə doğulduğum, dil açdığım, fəaliyyət göstərdiyim Odlar Yurdunun-Azərbaycanın vətəndaşı olmaqla, onun pasportunu daşıyır və bu duyğu ilə yaşayıram.

Qismət elə gətirdi ki, qürbətdə (Almaniyada) yaşamalı oldum. İlk illərdə çox darıxdığımdan nə edəcəyimi bilmirdim. Düşüncələrə dalırdım. Alman dilini bilmədiyimdən ünsiyyətim yalnız ailəm və qohumlarımla olurdu. Fəaliyyətsizlik məni çox narahat edirdi.

Əlli illik pedaqoji fəaliyyətim dövründə bu və buna oxşar vəziyyətlə bir dəfə də olsun üzləşməmişdim. Çıxış yolunu mütaliə etmək və düşüncələrimi qələmə almaqda gördüm.

Xülasə, beləcə şeir yazmağa başladım.

## *Ilk şeirlər kitabinin müəllifi Əsail Ağayev haqqinda bir neçə söz*

Əsail Ağayev 1928-ci ildə Azərbaycanın dilbər güşəsi olan İsmayıllı rayonunun Mücühaftaran kəndində dünyaya göz açmışdır. Uşaqlıq illərini kənddə keçirən Əsail natamam orta məktəbi bitirdikdən sonra Göyçay Pedaqoji məktəbinə daxil olmuşdur. Pedaqoji texnikumu başa vurub 1949- 1950-ci illərdə İsmayıllı rayonunun "Krasnı Oktyabr" kənd ibtidai məktəbinin müəllimi və müdiri vəzifəsində işləmişdir. 1950-ci ildən 1974-ci ilə qədər həmin rayonun Qubaxəlilli kənd natamam, sonralar orta məktəbin direktoru vəzifəsində çalışmışdır. Müəllim işləyə - işləyə 1955-ci ildə V.İ Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə bitirmişdir.

1974-1999-cu illərdə Azərbaycan Mərkəzi Müəllimləri Təkminləşdirmə Institutunda metodist vəzifəsində fəaliyyət göstərmişdir.

Ə.Ağayev harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq işgüzarlığı və məsuliyyəti ilə fərqlənmiş və digərlərinə nümunə olmuşdur. O, filioloq müəllim kimi, doğma Azərbaycan dili və ədəbiyyat fənnini şagirdlərə sevdirmək üçün fədakarlıq göstərmişdir.

Ə.Ağayev 25 ilə yaxın məktəb direktoru olmuşdur. O, icbari orta təhsilin həyata keçirilməsi, təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsi, intellektual şəxsiyyətin formalaşdırılması və s. sahələrdə yaradıcı fəaliyyət göstərmişdir. Bunların nəticəsidir ki, Qubaxəlilli kənd orta məktəbi nəinki İsmayıllı rayonunda, həmçinin respublika üzrə qabaqcıl təlim-tərbiyə müəssisələrindən biri olmuşdur. Təsadüfi deyil ki, keçən əsrin 70-ci illərində müasir dərs problemlərinə həsr olunmuş rayonlararası zona Elmi-praktik konfransı bu məktəbdə keçirilmişdir. Konfransda maarifimizin korifeyi, Yuneskonun üzvü, dünya səviyyəli pedaqoq, respublikanın Maarif naziri akademik Mehdi Mehdizadə iştirak etmiş, məktəbin fəaliyyətini yüksək qiymətləndirmiş və onun direktoru Ə.Ağayevə təşəkkürünü bildirmişdir. Səmərəli pedaqoji və təşkilatçılıq fəaliyyətinə görə Ə.Ağayev respublikanın "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif olunmuşdur. Aradan 50 ildən artıq vaxt keçməsinə baxmayaraq, məktəbə indi də "Əsail müəllimin məktəbi" deyirlər. Qubaxəlilli məktəbinin məzunlarının əksəriyyəti ali məktəblərə qəbul olunurdu. Məktəbin yetirmələri iqtisadiyyatın müxtəlif sahələrində çalışmaqla, onların səsi dünyanın hər yerindən gəlir.

Hüquqşünas- Ali Məhkəmənin üzvü Rəsul Səfərov, Respublika Həmkarlar İttifaqı Komitəsi Sədrinin müavini Yaşar Əliyev, Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşı polkovnik Ələddin Qurbanov, orta məktəb direktorları Ramiz Mustafayev, Balakişi Quliyev, kənd xəstəxanasının Baş həkimi Sərfi Bağırlı, sovxoz direktorları Sahib Şirinov, Oqtay Bağırlı, Bakı mebel fabrikinin direktoru Babacan Kərimov, qabaqcıl müəllimlər Xuraman Muradova, Əjdər Quliyev, Vaqif Şirinov, bağça müdiri Rəfiqə Mehdiyeva, iqtisadçı Lətif Ağayev və başqalarını misal göstərmək olar.

Ə.Ağayev Respiblika MTİ-də işləyərkən nəyə qadir olduğunu bir daha göstərdi. Təhsil sisteminin əsas sahəsi olan məktəbşünaslıq kabinetinin əməkdaşı kimi, rəhbər təhsil işçilərinin yaxın dostu və məsləhətçisi oldu. Onun məktəb rəhbərlərinin kurslarında söylədiyi mühazirələr, təşkil etdiyi praktik işlər, dinləyicilərə verdiyi məsləhətlər təhsilimizin yenidən qurulmasına və təkminləşməsinə kömək etmişdir.

Ə.Ağayev fəaliyyət sahəsindən asılı olmayaraq daim tədqiqat aparmış, təhsil sistemində mövcud problemlərlə bağlı elmi-metodik məqalələri ilə daha çox tanınmışdır. Təlim-tərbiyə müəssisələrinin işinin planlaşdırılması, məktəb-

daxili nəzarət və rəhbərliyin təşkili, pedaqoji kadrlarla işin təşkili və s. məsələlərlə bağlı onun qələmindən çıxan onlarla məqalə və tövsiyə mətbuatda dərc olunmuşdur.

Ə.Ağayev yaşadığı yerdə, işlədiyi müəssisədə, kollektivdə hörmət qazanmışdır. O, 1999-cu ildən təqaüdə çıxmış, 8 ildən artıqdır ki, Almaniyanın Münxen şəhərində yaşayır. Orada soydaşlarımıza Azərbaycan dilini öyrədir. Təqaüdə çıxmağına baxmayaraq, fəaliyyətini davam etdirir. Bunun nəticəsi kimi, o, ilk şeirlər kitabını hazırlayıb oxuculara təqdim edir.
Ə. Ağayevi bu münasibətlə təbrik edir, ona can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.

*Ataş Abdullayev*

## UNUTMURAM

Unutmaram heç bir zaman,
Göy Xəzəri, Odlar yurdu.
Təmiz qəlbli insanları,
Vətən sevən elliləri.

# ŞIRIN DILDIR

*(Atalar deyiblər:*
*"Dil var – bal gətirir, dil var bəla")*

Şirin dildir insanı çox yaşadan,
Yüzə çatdıraraq sonra qocaldan.
Çıxarma əzizim, heç də yadından,
Ağır sözdü insanı tez qocaldan.

Söz ilə açılır bağlı qapılar,
Söz ilə barışır bütün küslülər.

05.04.2001

## QƏRIBLIK ÜZÜR MƏNI

Qəriblik üzür məni,
Sözlər "düzəldir" məni.
Söylədim ki, bu dərdi
Yox olsun bütün dərdim.

Bircə bəndi yazanda,
Bir az dərdim azaldı.
İki bəndi yazanda,
Vallah dərdim tükəndi.

## YAZMASAYDIM ŞEIRLƏRI

Axtarıram sözləri,
Zərif – incə sözləri.
Bu sözlərin hər biri,
Hala gətirir məni.

Açmıram bütün sirri,
Deyim bircə sirri.
Yazmasaydım şeirləri,
Olardım mən sərsəri

03.03.2001.

## GƏZDIKCƏ DUYURAM VƏTƏNI HƏR AN

Vətəndən bu diyar uzaqdır uzaq,
Vətənə dayaqdır bu uzaq diyar.
Diyarı gəzirəm hər zaman, hər an,
Gəzdikcə duyuram Vətəni hər an.

Ümidlə görürəm vətəni xoşbəxt,
Arzum budur ki, bu olsun gerçək.
Bununçün oğullar birləşsin gərək,
Murdar erməniyə vursunlar kötək.

Qürbətdə eşitsəm bir təzə xəbər,
Heç yana baxmadan gəlləm bi xəbər.
Olaram mehman o doğma diyarda ,
Toy – bayram olar gədim Garabağda.

10.04.2001

# BU, ŞÖHRƏT GƏTIRƏR AZƏRBAYCANA

Düşmənlər düşünüb xəyala getsinlər,
Xain əməllərindən peşman olsunlar.
Beli bükük hönkür – hönkür ağlasınlar,
Qarabağı şərtsiz azad etsinlər.
Bu, şöhrət gətirər Azərbaycana.

Qaytarsın torpağı sözsüz, söhbətsiz,
Görək Qarabağı ermənilərsiz.
Nail olarıq buna heç şübhəsiz,
Sevinər, şənlənər, şəksiz xalqımız.
Bu, şöhrət gətirər Azərbaycana.

Şəhər və kəndləri abadlaşdıraq,
Yad şeyləri bir – bir kənara ataq.
Ucaldaq binalar, baxıb şadlanaq,
Bu işdə hər zaman bir yerdə olaq.
Bu, şöhrət gətirər Azərbaycana.

Yayılsa dünyada bir təzə xəbər,
Efirdə səsimiz hər yeri gəzər.
Ya rəbb, tezliklə eşidək şad xəbər,
O dilbər Qarabağda azad gəzək.
Bu, şöhrət gətirər Azərbaycana.

26.05.2001

# ARIFƏ QIZIM

Qoynuna alıbdır Alp dağı məni,
O azad etdi ürək qəmindən məni.
Görmək istəyirəm bu yerdə səni,
Ay mənim mehriban, Arifə qızım.

Vətəndən bu diyar uzaqdır, uzaq,
İstəyirəm artıq bir yerdə olaq.
Səninlə bir gəzib Xəzərə baxaq,
Ay mənim mehriban, Arifə qızım.

Yuxuda görürəm sizləri hərdən,
Oyanıb ətrafı gəzirəm birdən.
Səsini eşitdim uzaqdan, göydən,
Ay mənim mehriban, Arifə qızım.

Eşitsəm səsini olaram xürrəm,
Bir daha qürbətdə qalmaram inan.
Yaxın olsaq uçub yanına gəlləm,
Ay mənim mehriban, Arifə qızım.

Eşitsəm sizlərdən təzə şad xəbər,
Heç yana baxmadan gəlləm bixəbər.
Mehman ollam o diyarda bir qədər,
Ay mənim mehriban, Arifə qızım.

09.06.2001

## ALLAH VERIB ONU BIZƏ

*David Sənanoğlunun ad günü münasibətilə qələmə aldığım bu qısa şeirlər mənim ona olan ən qiymətli hədiyyəmdir.*

*Arzum budur ki, bu misralar Davidə bir əsrdən ziyadə həmdəm olsun, onu uşaq və nəvələrinə oxusun, onlara məndən bir neçə xatirə söyləsin.*

Hədiyyədir bu nəzm sənə,
Böyüyərsən zaman – zaman.
Yadda saxla sözümü sən,
Oxuyarsan zaman – zaman.

David adı xoşdur bizə,
Minnətdarıq biz allaha.
Allah verib onu bizə,
İnanırıq biz allaha.

Keçər zaman, böyüyər o,
Heç bir kəsi unutmaz o.
Çatdırar hörməti o,
Bir insandək hər kəsə o.

## DAVIDIN ƏRZI

Oldu bu il yaşım bir il,
Sözlərimi nəzmə çəkib.
Çatdırarsız qohumlara,
Ad günümə gələnlərə.
Minnətdaram mən onlara.

Diqqət verin bu sözlərə,
Təkid etdi, deyim sizə.
Inanın siz, hər bir sözə,
Yalan gəlməz heç dilimə.

Göz açdım bu diyarda mən,
Oldu mənə qürbət doğma.
Duydum hər an qayğını mən,
Təbiblərdən, doğmalardan.

Min arzular yetdi məni,
Ayaq tutub gəzdim eli.
Xəyallarda gördüz məni,
Müdriklərin dedikləri.

David adı verdi mənə,
Müdrik insan Səməd baba.
Fərəh verdi bu ad mənə,
İnan mənə, Səməd baba.

David adı xoşdur mənə,
Tanımaram hər bir yerdə.
Minnətdaram vallah Sizə,
David adı verdiz mənə.

David olub gözəl insan,
Mən də ollam yaxşı insan.
Baxar mənə atam – anam,
Fərəh duyar atam – anam.

Doğruldaram bu ismi mən,
Sərkərdətək yüksələrəm.
Hamı desə əhsən mənə,
Bu gətirər şöhrət mənə.

Əmilərim, dayılarım,
Tez – tez gəlin bizə sarı.
Mənim əziz doğmalarım,
Ayaq açın bizə sarı.

Keçər zaman böyüyərəm,
Keçmişləri unutmaram.
Çatdıraram hörməti mən,
Aram – aram sizlərə mən.

Ümidvaram vallah sizə,
Unutmazsız bu sözləri.
Ərkim çatır vallah sizə,
Yada salın bu sözləri.

## FAIQ ƏMI

Eşidəndə gəlirsiniz,
Çox sevincək oldu hamı.
Babaların tərs qanunu,
Arzunuza mane oldu.

Bu diyarın qanunları,
Sevindirir insanları.
Bu ölkəyə gəlsəydiniz,
Görərdiniz ədaləti.

Bu gün burda, bu şənlikdə,
Görünsəydi Faiq, Şaiq.
Qucaqlaşıb görüşəndə,
Beş qardaşı görərdiniz.

Faiq əmi, dinlə məni,
Salam deyin onlara siz.
Unutmasın onlar bizi,
Tapşırarsız onlara siz.

Ümidvaram vallah sizə,
David ərzi qalar yadda.
Hörmətimsə çoxdur sizə,
Inanıram qalar yadda.

25.09.2002

## OLDU YAŞIN ƏLLI IKI

*Oğlum Lətifə*

Sevinc verdi Lətif bizə,
Oldu yaşı əlli iki.
Sevinc olsun hər il bizə,
Olsun yaşı qoy yüz iki.

Hər bir ilin çiçəklənsin,
Baxıb sənə şadlanaq biz.
Arzuların qanad açsın,
Deyib – gülək bir yerdə biz.

Qarşında var böyük işlər,
Xoş arzular, şad xəbərlər.
Sevinc dolu bütün işlər,
Gəlsin sənə şad xəbərlər.

Uşaqların yetsin yaşa,
Olsun arxa onlar sənə.
Sevindirsin onlar səni,
Əzizləsin hər birisi.

Görək səni çox yüksəkdə,
Hər bir işin çatsın başa.
Toy edəsən qoşa – qoşa,
Çatdırasan onu başa.

13.11.2003

# İNAMIMIZ ÇOXDUR SƏNƏ

*Nəvəm Sonaya ithaf edirəm*

Lətif qızı, dinlə bizi,
Sevindirsən təkrar bizi.
Ucalarsan zaman-zaman,
Saxla yadda bunu hər an.

Gördük səni institutda,
Sevinc oldu bu da bizə.
Çalışqan ol bu ocaqda,
Görək səni çox yüksəkdə.

Doğrultdun hər sözünü sən,
Sona qızım, inan bizə.
Bacararsan hər işi sən,
Şöhrət olar bu da bizə.

Yazdım sənə ilk şeri mən,
Oxuyanda bəyəndin sən.
Məmnun oldum fikrinə mən,
Oxu yenə o şeri sən.

Bircə sözüm vardır sənə,
Bacıların ilki kimi.
Inamımız çoxdur sənə,
Atana ol oğul kimi.

Baxıb görək səni xoşbəxt,
Çiçəklənsin arzuların.
Həyata bax açıq gözlə,
Qanad açsın arzuların.

Xoş söhbət gedəndə səndən,
Sevinirik dönə, dönə.
Şad xəbər eşitsək səndən,
Ürəyimiz dönər dağa.

Ümidvarıq bizlər sənə,
Nümunə ol bacılara.
Hörmət edir onlar sənə,
Sona bala, yaxşı bala.

Nəsihətim vardır sənə,
Hər bir sözüm çatsın sənə.
Eşit məni hər zaman sən,
Başa çatdır, sözümü sən.

Xatirədir bu vəzf sənə,
Oxu onu hər bir zaman.
Saxla yadda sözümü sən,
Olar lazım o hər zaman.

03.01.2004

# KƏMALƏ

*İstəkdən gəlir xatirə dilə, uşaqlıq illərindən bir xatirə*

Mənim əziz qızım, bilirsən ki, mən,
Dünyada sevirəm səni ürəkdən.
Sevirəm səndəki saf məhəbbəti,
O saf qəlbindəki saf ülviyyəti.

Sevirəm mən sənin Nurananı da,
Andın, əhdin olan Cümşüdünü də.
İstərəm xatirə deyəm sizə də,
İstəkdən gəlir xatirə dilə də.

Kəmalə xanım düşüb bizdən uzağa,
Uşaqtək düşür ana – ata yadına.
Əl atır telefona, oxuyur namə,
Darıxıram, siz də gəlin bizlərə,
Ancaq kassetlərdə baxıram sizlərə.

Körpəlikdə belə adət vardı onda,
Qoymazdı dincəlməyə bizi bir an da.
Ağlardı, həm də səs salardı hər yana,
Bağçadakılar qalarddı yana – yana.

Orda küsərək danışmazdı heç kimlə,
Sorğuya da cavab verərdi bikarə.
Doğrusu ona tapılmırdı bir çarə,
Sorduq:“ Nə xoş gəlmir sənə, de bizlərə”.

- Bax! Onun priçoskası xoş gəlmir mənə,
Deyin ona priçoskasız gəlsin işə.
Yoxsa dartıb ataram onu bir yana,
Olmasa belə heç getmərəm bağçaya.

Onun istəyilə gəldi işə biçarə,
Yox idi xanımda başqa heç bir çarə.
O gündən dərhal səs yayıldı bağçada,
Kəmalə yaradıbdır qayda bağçada.

Bu bir xatirədir söylədim sizlərə,
Kəmalə əzizdən-əzizdir bizlərə.
Onda var ata – anaya böyük qayğı,
Odur ki, ona hamı göstərir qayğı.

15.01.2004

## MƏRHUM RZA QARDAŞ

*Mərhum Rza Səlimovun əziz xatirəsinə*

Mərəz tapdın bizim eldə,
Oldun loğman, həm də pirdə.
Tapılmadı sənə çarə,
Uydun doğma torpağında.

Düşdün ayrı qardaşdan sən,
Ruhu çox əziz, canım Rza.
Qəlbimdəsən hər zaman sən,
Doğma qardaş, mərhum Rza.

Məni üzür qardaş dərdi,
Qəlbim çəkir həsrət dərdi.
Səni görmək arzum idi,
Kimə desin Ramiz dərdi.

Əlim sənin baş daşında,
Sözün mənim yaddaşımda.
Söhbətini salıb yada,
Danışırıq aramızda.

Sözüm vardı mənim sənə,
Bu qaranlıq dar otaqda,
Necə deyim bir söz sənə,
Sənsiz həyat dardır mənə.

Rahat yat bu məzarda sən,
Bizlərdən bixəbər, qardaş.
Yaddaşlardasan hər an sən,
Vaxtsız gedən, mərhum qardaş.

20.01.2004

# OLUN HƏR AN BAX BELƏCƏ

Ötən günlər düşür yada,
Yaxşı şəxslər qalır yadda.
Qeyriləri düşmür yada,
Olun hər an bax beləcə!

Gəzib eli dolandım mən,
Sizi görcək sevindim mən.
Yeniliyi görəndə mən,
Sevinc hissi keçirdim mən.
Olun, hər an bax beləcə!

Gələ bilirik bizlər sizə,
İnamımız çoxdur sizə.
Gəlişiniz olsa bizə,
Sevinc olar vallah bizə,
Olun hər an bax beləcə!

Belə söz var el-obada,
Yaxşı insan qalır yadda .
Onun şirin-şəkər sözü,
Qalır daim yaddaşlarda.
Olun, hər an bax beləcə!

Gecə-Gündüz qürbətdə mən,
Düşünürəm vətəni mən,
Mil-Muğanı, Qarabağı,

Odlar yurdu Bakını mən.
Olun, hər an bax beləcə!

Bircə sözüm vardır sizə,
Hörmətim var hamınıza,
Unutmayın o kəsləri,
Sizi uca tutanları,
Sizi hər an aranları.
Olun, hər an bax beləcə!

22.01.2004

## OLUN DAIM ARAMIZDA

*Əziz qonşu-dostlarım Professor*
*Zahid müəllim və Rafiq bəyə*

Əziz dostlar inanın ki,
Siz olanda aramızda,
Sevincimiz aşır-daşır,
Olun daim aramızda.

Dost-qardaşı aranda siz,
Tanınırsız hər yerdə siz.
Belə işdə ucalırsız,
Olun daim aramızda.

Ötən günlər düşür yada,
Yaxşı şəxslər qalır yadda,
Qeyriləri düşmür yada,
Olun daim aramızda.

Hörməti var elin sizə,
Yad hərəkət yoxdur sizdə,
Qibtə edir hamı sizə,
Olun daim aramızda.

Bircə sözüm vardır sizə,
Hörmətiz var aramızda
Unutmayın bunu heç vaxt,
Olun daim aramızda.

Dinləyin siz məni bir an,
Çatdırıram bunu sizə,
Qəlbi təmiz insanlara,
Çox vurğunam bax beləcə.
Olun daim aramızda.

Xoş məramlı arzu ilə,
İthaf etdim şeri sizə.
Oxuyun siz duyğu ilə,
Sevinc dolu arzu ilə.
Olun daim aramızda.

15.08.2004

## MƏN HISS ETDIM KI...

*Mən hiss etdim ki, təqaüdə çıxandan sonra da həyat fəaliyyətini davam etdirmək üçün nə iş olursa-olsun, onunla məşqul olmaq lazımdır. Düşünürəm ki, bu həm də zəruridir.*

Yaşayıb-yaratmaq xasdır insana,
İşin mahiyyətin hər kəs düz qana.
Yeməkdən, içməkdən zövq alan insan,
Heyvan adətilə yaşayır o, qan!

Əməklə ucalıb dahi insanlar,
Həyatda çox-çoxdur hikmət qananlar.
Çalış öz vaxtını sərf et əməyə,
Onda tanrı çatar sənə köməyə.

16.08.2004

## ORXAN RAFIQ OĞLU

*Rafiq bəyin oğluna ithaf*

Çox sevimli bala Orxan,
Bir igiddir bizim Orxan.
Heyran olur ona baxan,
Çox qoçaqdır bizim Orxan.

Məhəllənin qəhrəmanı,
Ailənin bəyi, xanı.
Rafiq oğlu bizim Orxan,
Xatırladır bəyi, xanı.

Diqqətlidir bizim Orxan,
Qəlbi təmiz bizim Orxan.
Bir kimsədən deyil qorxan,
Bu sevimli bala Orxan.

Rafiq deyir taleyimdi,
O, ürəyim və dostumdu.
Çox vuqarlı ümidimdi,
Bizim əziz, bala Orxan.

Yazır, pozur hər gün Orxan,
Allah verib ona ilham.
Qayğıdır bizə Orxan,
Baldan şirin bizim Orxan.

Sevilәndir el-obada,
Çalışır hey, vallah Orxan.
Qazansın o, layiqli ad,
İgid bala, bizim Orxan.

20.08.2004

## KÜBRA

*Qonşum Rafiqin qızına ithaf*

Yeniliyi görəndə mən,
Sevinc duydum ürəkdən mən.
Təbrik etdim Kübranı mən,
O mehriban xanımı mən.

Sınaq dolu test imtahan,
Verdi ona böyük imkan.
Zəfər çaldı gülə - gülə,
Açdı ona yol imtahan.

Görünsən sən çox yüksəkdə,
Örnək olsan bacılara,
Tanınarsan el – obada.
Əhsən deyər hamı sənə.

Atana ol oğul kimi,
Görüb səndən ibrət alan.
Olsun ancaq sənin kimi,
Rafiq qızı, Kübra xanım.

30.08.2004

## EMIR NƏVƏM, GÜL NƏVƏM

*Zenfira xanımın nəvəsi Emirə ithaf*

Sən ümidim, pənahım,
Allahımdan pay mənim.
Xoş açılan sabahım,
Emir nəvəm, gül nəvəm.

Bir çıraqsan, bir işıq,
Sən ömrümə yaraşıq.
Gözlərimə sən işıq,
Emir nəvəm, gül nəvəm.

Allah, səndən razıyam,
Emir tək mərd nəvəm var.
Taleyimdən razıyam,
Çox sevimli nəvəm var.

Gözəllikdə tək nəvəm,
Taleyimdə ulduzum.
Sən nəğməli baharım,
Emir nəvəm, gül nəvəm.

Sən günəşim, həm ayım,
Arzum budur, ay gülüm.
Toyunda doyunca oynayım,
Emir nəvəm, gül nəvəm.

20.09.2004

# KIÇIK QARDAŞ, AĞA QARDAŞ

Daşıyırsan, Ağa qardaş,
Baba ismi şərəflə sən.
Doğruldarsan bu ismi sən,
Kiçik qardaş, Ağa qardaş.

Gəlsin evdən körpə səsi,
Daşısın o, Vaqif adı.
Eşit evdə Vaqif səsi,
Kiçik qardaş, Ağa qardaş.

Şərəf olar bu ad bizə,
Sevincimiz çatar sizə.
Yadda saxla sözümü sən,
Kiçik qardaş, Ağa qardaş.

Dost-qardaşı aranda sən,
Tanınınrsan hər yerdə sən.
Belə işdə yüksəlirsən,
Kiçik qardaş, Ağa qardaş.

İnanırıq bizlər sənə,
Olacaqsan daim belə.
Görən deyər əhsən sənə,
Kiçik qardaş, Ağa qardaş.

Baban adın verdi sənə,
Böyük sevinc, duyğu ilə.
Çox yaraşır bu ad sənə,
Yaşat onu adın ilə,
Kiçik qardaş, Ağa qardaş.

Öz nəslinlə maraqlansan,
Hər birinin adın bilsən.
Ay maşallah, deyərsən sən,
Kiçik qardaş, Ağa qardaş.

Ulu baban qoçaq olub,
Quldurları vurub yıxıb.
Kəndimizi o qoruyub,
Kiçik qardaş, ağa qardaş.

Ürək–dirək verdi bizə,
Qorxmaz olun dedi bizə.
Tövsiyyəsi oldu bizə,
Oxşayarsız nəslinizə,
Kiçik qardaş, Ağa qardaş.

Ulu baban qoydu getdi,
Adı–sanı, şöhrətini.
Yaşadırıq o şöhrəti,
O kişinin şöhrətini,
Kiçik qardaş, Ağa qardaş.

10.10.2004

## ƏLLİ YAŞIN MÜBARƏK

*Qızım Lətifəyə ithaf edirəm*

Sən sanma bu günü adi günündü,
Sevin, ey əzizim, bax, ad günündü.
Taleyində sənin ən şad günündü,
Lətifə xanım, əlli yaşın mübarək.

Beş günlük dünyadan bir il də ötdü,
Həyat bağçasında bir gül də bitdi.
Gəldik məclisində sağlıqlar deyək,
Sənin şərəfinə bu şad gününə.
Lətifə xanım, əlli yaşın mübarək!

Təbrik söyləyirik sənə ürəkdən,
Xoş gün diləyirik sənə fələkdən.
Heç seçilmirsən vallah Mələkdən,
Lətifə xanım, əlli yaşın mübarək!

Bu gün, ey əzizim, yubileyimdir,
Doğmalar şadlıq edir və rəqs edir.
Qədəh cingildəyir, badə səs edir,
Lətifə xanım, əlli yaşın mübarək!

Soyun, kökün şirvanidi, mücüdü,
Lətifə xanım işində öncədi.
Baxışları qəlbi kimi incədi,
Lətifə xanım, əlli yaşın mübarək!

Bütün arzuların açsın gül, çiçək,
Ömrün uzun olsun istədiyintək.
Üzünə gülsün həmişə gələcək,
Lətifə xanım, əlli yaşın mübarək!

22.03.2005

## SONA ANA

*75 yaşı münasibətilə*

\- Kimdir Sona ana?
\- Coşqun dəniz,
\- Varmı ondan əziz?
\- Bir qocaman dağdır Sona,
Dayanar, dəryada durar,
Zirvəsi göydən uca.

\- Kimdir Sona ana?
\- Ən dəyərli xanımdı,
Yetirdiyi hər övlad,
Ona dünya qədər əzizdi,
Ən qiymətli sərvətdi

\- Kimdir Sona ana?
-Şöhrətli böyük ana,
Layiqdir bu ad ona.
Övlad
Gətirir şöhrət ona.

\- Necədir Sona ana?
-75 baharlı ana,
Parlayır bu gün yenə.
Bir əsr yaş dilək ona,
Sevinsin bir də yenə.

01.05.2005

## QARDAŞLAR

*Eminin sevimli körpələrinə ithaf*

Qardaş arxa,köməkdir,
El - obaya gərəkdir.
Bir - birinə köməkdir,
Ramiz, Raul qardaşdır.

Bu mehriban qardaşlar,
Şirin - şəkər şərbətdir,
Hər ikisi qeyrətdir,
Ramiz, Raul qardaşdır.

Ən böyük arzu, istək,
Onları xöşbəxt görək.
Bax, budur arzu, istək,
Ramiz, Raul qardaşdır.

20.05.2005.

## RAMIZ EMINOĞLUYA

Gəldi bizə kiçik Ramiz,
Əli qönçə, əyni təmiz.

Hər bir sözü bizə əziz,
Əl-ayağı tamam təmiz.

Söhbət açdı ordan - burdan,
Dedi mənəm sizi aran.

Qoy böyüyüb çatım başa,
Mən gələrəm sizə qoşa

Arzum budur olam həkim,
Öz peşəmə olam hakim.

Göstərərəm sizlərə mən,
Az da olsa, xidməti mən.

Mənə baxıb fərəhlənsəz,
Çatdıraram sizə əvəz.

Qurşanaram idmana mən,
Boy ataram tez bir zaman.

Baxan deyər əhsən sənə,
Çox yaraşır bu boy sənə.

Dedi sösüm tamam təmiz,
Emin oğlu qoçaq Ramiz.

Deyəndə o hər bir sözü,
Ölçüb - biçir o hər sözü.

Qalır yadda onun sözü,
Seçir sözü onun özü.

Hədiyyədir bu nəzm ona,
Gözəl həyat qismət ona.

İthaf etdi şeri ona,
Qürbətdəcə böyük baba.

Can sağlığı dilər ona.
Qələm əhli böyük baba.

22.05.2005.

## AY MƏNIM GÜNEL QIZIM

Sən Günəşim, həm ayım
Arzum budur, ay qızım,
Toyundaca oynayım
Günel balam, gül balam.

Səni xöşbəxt görüm mən,
Bir nazənin olasan
Sən də bir gün anasan,
Ay mənim ceyran qızım.

Bilirsən ki, ay qızım,
Yollarda qalıb gözüm.
Səni gəzir hər gözüm,
Mənim əziz, gül qızım,

Söz sənindir, ay balam,
Gəl bizləri düz anla.
Mənim şirindil balam,
Günel balam, can balam.

Söz sənindir dedim mən,
De eşidim bir də mən.
Edim əməl sözə mən,
Ay mənim, dilbər qızım.

05.08.2005

# RAMIZ SEVIR "DUZLU" SÖZÜ

Belə söz var el – obada,
Yaxşı insan qalır yadda.
Onun şirin, duzlu sözü,
Qalır daim yaddaşlarda.
Ramiz sevir "duzlu" sözü

Ölçüb-biçir Ramiz sözü,
Ələkləyir hər bir sözü.
Deyim sizə sözün düzü,
O, çox sevir təmiz sözü,
Ramiz sevir "duzlu" sözü

Ərzi oldu onun mənə:
- Al əlinə qələmini,
Boş keçirmə öz gününü.
Yaz xəyaldan keçənləri,
Olub-ötən keçmişləri.
Ramiz sevir "duzlu" sözü.

Unutma sən bircə sözü,
Çalış-axtar zərif sözü.
Onunla de sözün düzün,
Barışdırsın küslüləri,
Sənin şirin, duzlu sözün.
Ramiz sevir "duzlu" sözü,

22.10.2006

# TELMAN – GÜVƏNC YERİMİZ

Azərbaycanın barlı – bərəkətli Şirvan bölgəsində qədim zamanlardan bir sıra adlı-sanlı görkəmli xeyriyyəçi müdrik şəxsiyyətlər tanınır. El hürməti qazanmış bu insanların adları qızıl hərflərlə tarıxə həkk olunmuşdur.

Müasir dövrümüzün belə şəxslərindən biri də Şirvanlı Telman İsmatılovdur. Telman Mərdan oğlunun nümunəvi fəaliyyəti barədə mətbuatda qəlbi coşduran qohuma, dosta sevinc gətirən çox dəyərli yazılar oxumuş və xoş sözlər eşitmişik.

Mərhum Pəri ananın qardaşı qızı – həyat yoldaşım Sona xanım bibisi oğlu Telman Mərdan oğlu İsmayılovun xeyirxah fəaliyyətindən fərəh hissi duyur. Bütün bunları nəzərə alaraq bu müdrik şəxsə olan hüsn-rəqbətim bir daha artdı. Odur ki, onun uşaqlıq, gənclik dövrü və ümumi fəaliyyəti barədə həqiqətləri qələmə aldım.

10.10.2006

# TELMAN MƏRDAN OĞLU - XALQIN MƏRD OĞLU

Göyçayda göz açdı bir körpə,
Nur qəlbli, çox göyçək bir körpə.
Var idi, nur onun qəlbində,
Saçırdı yerə, həm də göyə.

Tez bir zamanda Pəri və Mərdan,
Düşünüb adın qoydular Telman.
Göstərdilər ona qayğı hər an,
Körpəni böyütdülər mehriban.

O, boy atdıqca əl atdı əməyə,
Düşüncələr onu çəkdi zəhmətə.
Dedi: "Əməkdir insanı ucaldan,
Gərək işimlə xalqımı ucaldam."

Bax, beləcə çox tez tanındı Telman,
Oldu o, qohuma və dosta həyan.
Düşündü dərindən getdi xəyala,
Gedirəm dedi cənubdan şimala.

Getdi o, sovetlərin paytaxtına,
Bizlərə çox doğma olan Moskvaya.
Çalışdı, habelə meyl etdi elmə.
Hakim oldu o tez müddətdə elmə.

Artdı ona bir daha el hörməti,
Boy atdı onda xalqın məhəbbəti.
O, zəhmətlə qazanandır hörməti,
Duyulur onun xalqa məhəbbəti.

Var Telmanda cəsarət, həm də qüdrət,
Fəxri kitabda yazılıb bu şöhrət.
O görəndə imkansız insanları,
Yönəldir köməyi onlara sarı.

Hər yerdə ondan gedəndə xoş söhbət,
Doğma eldə, bir də ki Avropada.
Özü də dəyərli – qiymətli söhbət,
Gətirir bizlərə layiqli şöhrət.

Bu el oğlunun adı çox ucadır,
Allah onu millətə bəxş edibdir.
Millətin qəlbində öz evi vardır,
Çünki o, çox mərhəmətli insandır.

10.10.2006

# TELMAN QARDAŞ, AD GÜNÜN MÜBARƏK

Yaşayırsan, yaradırsan el üçün,
Tükənməzdir arzuların xalq üçün.
Ürək açdın, bir qəlbi də sıxmadın,
Odur ki, hər yerdə ucadır adın.
Telman qardaş, ad günün mübarək.

Hər yerdə hörmətlə çəkilir adın,
İldən – ilə şöhrət tapır soyadın.
Doğma olub hər ailədə öz adın,
Dəstək olur öz xalqına soyadın.
Telman qardaş, ad günün mübarək.

Soyun, kökün Şirvanıdı – Göyçaydı,
Qohum, dostla ünsiyyətin öndədi.
Baxışların qəlbin kimi incədi,
Sadəliyin əlçatmazdı, öndədi.
Telman qardaş, ad günün mübarək.

Səni görəndə yan – yana bir yerdə,
Çox mötəbər insanlarla hər yerdə.
Sevincək ürəyimiz dönür dağa,
Yüksəlir nüfuzun daha ziyadə.
Telman qardaş, ad günün mübarək.

26.10.2006

## BİLAL QIZI, AYAN XANIM

*Ayanın toyu münasibətilə*

Sən qönçəsən, həm incəsən,
Gözəl - göyçək bir gəlinsən
Bizim eldə boy atmısan,
El - obada sevilirsən.
Bilal qızı Ayan xanım.

Göz açdın sən Sumqayıtda,
O şöhrətli doğma yurdda.
Nişanlın da Sumqayıtda,
Qarıyasız döğma yurdda.
Bilal qızı Ayan xanım.

Heç doymadın göy Xəzərdən,
Məst olurduq xoş sözlərdən.
Tanrı, saxla bəd nəzərdən,
Düşdün uzaq göy Xəzərdən
Bilal qızı Ayan xanım.

Atana ol oğul kimi,
Qaynanana qızı kimi.
Əməl etsən sözümə sən,
Şöhrət olar bu da sənə.
Bilal qızı Ayan xanım.

Arzum budur, Ayan gəlin,
Oxşayasan anana sən.
O mehriban anaya sən,
Qədir bilən anaya sən.
Bilal qızı Ayan xanım.

İnamımız çoxdur sənə,
Olacaqsan bax beləcə.
Baxıb-görən deyər sənə,
Əhsən sənə, Ayan bala.
Bilal qızı Ayan xanım.

Oxşamasan sən öz anana,
Hər işində,duruşunda,
Gəzişində, gülüşündə.
Sevinc olar vallah bizə,
Bilal qızı Ayan xanım.

Alqışlayır qəlbən səni,
Uzaqdakı yaxınların.
Yad edirlər hər an səni,
Nazənin rəfiqələrin.
Bilal qızı Ayan xanım.

21.01.2007

## BALA CÜMŞÜD

*Ad günü münasibətilə*

Uca boylu bizim Cümşüd,
Bir igiddir bala Cümşüd.
Heyran olur ona baxan
Nə şirindir bizim Cümşüd.

Çox yaraşır ona boyu
Ailənin bircə oğlu,
İlham oğlu bala Cümşüd,
Şöhrət olsun ona boyu.

Çox diqqətlə bizə baxan,
Qəlbi təmiz bizim Cümşüd.
Buraxdığı səhvə baxıb
Başa düşür bizi Cümşüd.

Ana deyir taleyimdi,
Həm ürəyim həm dostumdur,
Çox vüqarlı ümidimdür,
Yuxu sevən bizim Cümşüd.

Yazıb-pozmur bizim Cümşüd,
Allah versin ona insaf.
Bir düşünsə bala Cümşüd,
Allah verər ona insaf.

Çalışqan ol, bala Cümşüd.
Sevilərsən inan, Cümşüd.
Doğrultsan bil özünü sən,
Bala Cümşüd, inan mənə,
Hörmət edər hamı sənə.
Sözün olsa əgər mənə,
Kömək əlim çatar sənə.

Diqqət yetir bu şerə sən,
Oxu onu hər bir zaman.
Saxla yadda sözümü sən,
Olar lazım o hər zaman.

Başa çatsın arzuların,
Həyata bax açıq gözlə.
Bəd əməldən özün gözlə.

İthaf etdi şeri sənə,
Qələm əhli sənin baban
Can sağlığı dilər sənə,
Qəlbi təmiz sənin baban.

18.02.2007

*"Kimin olsa əgər bir şirin dili*
*Tükü ilə çəkər o dalinca fili"*

***Sədi Şirazi***

## GƏL EŞİDƏK ŞİRİN SÖZ

İnsanın tacı sözdür,
Ürək açan şirin söz,
Onsuz insan sönükdür,
De, qəlbi sevdirən söz
Gəl eşidək şirin söz.

Hər kəs desə təmiz söz,
Ürək açan şirin söz.
Yüksəldər onu hər söz,
Eldə çoxdur şirin söz.
Gəl eşidək şirin söz.

Konüllər alışanda,
Baxışlar danışanda,
Küslülər barışanda,
Səbəbi şirin sözdür
Gəl eşidək şirin söz.

Yağıları dost edən,
Əsəbləri süst edən,
Sevənləri məst edən,
Yenə də şirin sözdü.
Gəl, eşidək şirin söz.

Acı sözdü qocaldan,
Şirin sözdü ucaldan
Ucalara ucaldan,
Yenə də şirin sözdü.
Gəl eşidək şirin söz.

Ürəkaçan olsa söz,
Dinlərik hər birimiz.
Eşidilsə şirin söz,
Sevinər hər birimiz.
Gəl eşidək şirin söz

20.02.2007

## DÜZ DANIŞAN UTANMAZ

Çalış hər an düz danış,
Sonu yoxdur yalanın.
Ayaq tutar yeriməz,
Düz danışan utanmaz.

Düz söz gətir dilinə,
İnsaf gəlsin qəlbinə.
Vəfalı ol sözünə,
Düz danışan utanmaz.

Düz söz gəlsə dilinə,
Bağlanarsan elinə.
Gəlməz yalan dilinə,
Düz danışan utanmaz.

Fikirləşib danışan,
Dilə gətirməz yalan.
İnsanlığı xar edən,
Yalandı, yenə yalan.
Düz danışan utanmaz.

Düzlük ömrün izidi,
İtirir yalan izi.
İtirmə, sən izini,
Təmiz saxla dilini.
Düz danışan utanmaz.

İnsafa gəl düz danış,
Sözü söyləmə yanlış.
Çalış döğru söz danış,
Etsinlər sənə alqış.

26.02.2007

# LƏTİFƏ BALA, LƏTİFƏ

*Lətifə balanın 10 yaşı münasibətilə*

Görməyəsən ziyan-zərər,
Uzaq olsun səndən kədər.
Səxavətin ümman qədər,
Sevilirsən bir o qədər.

On ilini vurdun başa,
Qısa yollar aşa-aşa,
Səni görüm yüz il yaşa,
Xoş sözlərlə yaşa-yaşa!

Mərifətdə lap öndəsən,
Şirin dillə tanınırsan.
Sən də bir gün bir anasan.
Bütün eldə tanınarsan.

Sən qəlbimdə ol birinci,
Mirvarisən bir də inci.
İstəsən sevin, ya inci,
Sən birinci, sən birinci.

Arzum budur inan, bala,
Loğman kimi görünəsən.
Ağ xalatda bala-bala,
Baldan şirin görünəsən.

Sevinc duyar atan-anan.
Loğman kimi qapı açsan.
Unutma sən bunu bir an,
Gəl bilmə sən bunu asan.

Ümidvarıq bizlər sənə,
Görünərsən ağ xalatda.
Allah versin qüvvət sənə,
Görünəsən ağ xalatda.

Sən mələkdən nazlısan,
Qanı şirin duzlusan.
Elçinin övladısan.
İtirmə nəslini sən.

Gəl qulaq as sözümə,
Diqqət yetir özünə.
Əməl etsən sözümə,
Xeyir gətirər özünə.

Nənən deyir can sənə,
Arzum budur, ay qızım,
Oxşayasan sən ona.
Hər bir işdə, can qızım.

24.03.2007

## AYALA, AY AYALA

*Dörd yaşı münasibətilə*

Qara saçlı ağ qızsan,
Sənan bəyin qızısan.
Evinsə ulduzusan,
Ayala, ay Ayala.

Bir dənəsən, bir dənə,
Olmayasan biganə,
Gözəlliyin yeganə,
Ayala, ay Ayala.

Gözümdəcə uçasan,
Yaradana min əhsən.
Sən ayrıca gözəlsən,
Ayala, ay Ayala.

Sözlərində, dilində
Başqa gözəl görmədim.
Sənin doğma elində
Səndən gözəl görmədim.
Ayala, ay Ayala.

Lap yamanca dəcəlsən,
Şirin-şəkər sözümsən.
Xalis qara gözlümsən.
Ayala, ay Ayala.

Baban sənin Ramizdi,
Vallah Allah Kərimdi.
Bir gün sən də gəlinsən,
Ayala, ay Ayala.

Toy günündə haçansa,
Cavan nənən Lətifə,
Oynayacaq astaca,
Ayala, ay Ayala.

Anan bu gün sevindi,
Sevincək səni öpdü.
Övlad ləzzəti daddı,
Ayala, ay Ayala.

Arzum budur, can bala,
David bəyin toyunda,
Rəqs edəsən doyunca,
Ayala, ay Ayala.

17. 04.2007

## UCA TUT HƏR ZAMAN ƏDƏB - ƏRKANI

Allah verənə şükür et, qənimət,
Böyüklərə gəl, sən eylə itaət.
Qəlb sındırma, eyləmə sən qəbahət,
Bil Allahın kəlamıdı itaət!
Uca tut hər zaman ədəb-ərkanı.

Xoş söz üçün özündə tap cəsarət,
Xar edir insanı hər bir qəbahət.
Çalış özündə tap azca cəsarət,
Görünməsin səndə bir də qəbahət.
Uca tut hər zaman ədəb-ərkanı.

Sevgilinin bil həmişə qədrini,
Unutma sən heç də onun ətrini.
Göstər əməlinlə məhəbbətini,
Yaşadır məhəbbət hər bir insanı,
Uca tut hər zaman ədəb-ərkanı.

Bir şirin sözlə gəl dindir bizi,
Sevinmək istəyirik sevindir bizi,
Qəlbinin səsilə gəl isit bizi,
Küsdürmə sən acı sözlərlə bizi.
Uca tut hər zaman ədəb-ərkanı.

Çalış dilinə gətirmə qələti,
Hər yetənə demə ağzına gələni.

Acı sözlər qocaldandır insanı,
Gətirmə dilinə ağzına gələni.
Uca tut hər zaman ədəb-ərkanı.

Uzaq sayma özündən bil, heç kimi,
Say yaxınlarını özünün kimi.
Ehtiram et, səni seçib sayana,
Hər biri ilə qoşa dayan yan-yana.
Uca tut hər zaman ədəb-ərkanı.

Sözümdən çıxartsa kimsə nəticə,
Ucalar hər zaman ucadan uca.
Kimdə olsa azca belə kəramət,
Yad olar ona vallah hər qəbahət.
Uca tut hər zaman ədəb-ərkanı.

Qəzəbdir insanı acığa salan,
Üzərək məhv edib məzara salan.
Qəzəbin olanda özünü saxla,
Bu nəzmin hər sözün yadında saxla.

05.12.2007

## OLMUŞAM

Cavan ikən bir ağsaqqal olmuşam,
Xeyir-şərdə, hər bir işdə olmuşam.
Büdrəmişəm, yıxılmışam, durmuşam.
Toyda vallah rəqs edəni yormuşam,
Indi isə tamaşaçı olmuşam.

Yaman əsəbiyəm, hərdən coşuram,
İlhama gələndə söz də qoşuram
Acı sözdən çəkinirəm, qorxuram,
Təzyiqim olanda həddi aşıram.
Deyin mənə, nə edim mən, bilmirəm.

Ürək dərdi qəmə salıbdır məni,
Heç bilmirəm kimə deyim bu dərdi.
Təhlükədən Allah saxlasa məni,
Yük olmaz mənə bir də ürək dərdi.
Tale məndən uzaq etsin bu dərdi.

Ürək məni, mən ürəyi yormuşam,
Nazına da səbr ilə dözmüşəm
Həbləri də növbə ilə atmışam,
Gecə-gündüz düşünmüşəm, bezmişəm
Yaza-yaza sanki şair olmiuşam.

30.12.2007

## DOSTU HEÇ DƏ UNUTMARAM

*Dosent Ataş Abdullayevə ithaf*

Ataş dostum tanınandır,
El – obada, dost yanında.
Unutmur da heç kəs onu,
Sanır onu öz yanında.

Axtarandır Ataş dostu,
Gözdən qoymaz heç də onu.
Sevir onu hər bir dostu,
Unutmur heç dostlar onu.

Var dostları hər bir yerdə,
Doğma eldə, həm də evdə.
Qayğı duyur dostlar ondan,
Hər bir anda hamısı da.

Xatırlayır zaman - zaman,
Şirvandakı bütün dostu.
Unutmur o heç bir zaman,
Harda olsa yaxşı dostu.

Təşəkkürüm vardır sənə,
Salamların çatır mənə.
Dinlə, düzün deyim sənə,
Qəlbimdəsən, inan mənə.

Qazanmışsan hörməti sən,
Hər bir yerdə, dost yanında.
Çox vurğunam vallah sənə,
Şöhrətlisən el-obada.

Fərəhlənib hey yazaram,
Aram-aram şəninə mən.
Dostu heç vaxt unutmaram,
Əməyindən çox yazaram.

Yadda qalsın bu son sözüm,
Qələminin gücün gördüm.
Daha yoxdur sənə sözüm,
Dostluğu da səndə gördüm.

15.02.2008.

## KİÇİK FAİQ VƏ ŞAİQİ SEVİR QƏLBƏN BABA FAİQ

İş görəndə Faiq, Şaiq,
Nəzər yetir, baba Faiq.
Cüt gəzəndə Faiq, Şaiq,
Fərəh duyur vallah Faiq.

Kiçik Faiq və Şaiqi,
Sevir qəlbən baba Faiq.

Mehribandır Faiq sənə,
Hər bir anda, həyat boyu.
Əl yetirir Şaiq sənə,
Bütün günü, illər boyu.

Kiçik Faiq və Şaiqi,
Sevir qəlbən baba Faiq.

Xoşbəxt olsun onlar qoşa,
Toy edəsən qoşa-qoşa.
Bəd nəzərdən uzaq olsun,
Qoçaq Faiq, həm də Şaiq.

Kiçik Faiq və Şaiqi,
Sevir qəlbən baba Faiq.

16.02.2008.

# QARDAŞIM YƏHYANIN ƏZİZ XATİRƏSİNƏ

Kədərli yuxular üzürdü məni,
Heç bilmirdim kimə deyim bu dərdi.
Röyada mərhumdan "sordum" bu dərdi,
O, "yaz ruhuma neçə xatirə"- dedi.
Eləcə də yazdım, duydum kədəri,
Tale göstərməsin bir də bu dərdi.

Sənin yoxluğuna dözmürəm qardaş
Hamı rəhmət deyir sənə, ay qardaş.

Necə həzin idi onun hər sözü,
Onun şirin səsi, işıqlı gözü.
Yerində deyərdi o hər bir sözü,
Doxsanadək işini gördü özü.

Sənin yoxluğuna dözmürəm qardaş,
Hamı rəhmət deyir sənə, ay qardaş.

Gözəl idi səsində el qoşması,
Ah, necə də sevilirdi xoş səsi.
Vuqarla deyərdi neçə qoşmanı,
Unudulmur onun o gözəl səsi.

Sənin yoxluğuna dözmürəm qardaş,
Hamı rəhmət deyir sənə, ay qardaş.

O, əməyilə şöhrət tapdı elində,
Görünürdü hər an eldə, obada.

Əl uzatdı hər kəsə öz yerində,
Heç kimin ərzini qoymadı darda.

Sənin yoxluğuna dözmürəm qardaş,
Hamı rəhmət deyir sənə, ay qardaş.

Etdi məktəbi öz sənət məbədi,
Yaratdı, adısa qaldı əbədi.
Unutmur heç zaman bir kəs də onu,
Xalqın yaddaşında qaldı əbədi.

Sənin yoxluğuna dözmürəm qardaş,
Hamı rəhmət deyir sənə, ay qardaş.

Yəhyanı itirdim, doğma bir şəxsi,
Eh qulağımdadı nəfəsi, səsi.
Heç də sönməmişdi həyat həvəsi,
Unutmazdı əsla o heç bir kəsi.

Sənin yoxluğuna dözmürəm qardaş,
Hamı rəhmət deyir sənə, ay qardaş.

Qardaşım heç kimə "sağ ol" demədi,
Allahın əcəli macal vermədi.
Dəyişdi dünyasını əbədi getdi,
Öləndə Azərə oğul dilədi.

Sənin yoxluğuna dözmürəm qardaş,
Hamı rəhmət deyir sənə, ay qardaş.

03.02.2008

# MƏZUNUM MƏNİM

*Hakim Rəsul Səfərova ithaf*

Xətrini istərəm bir məzun kimi,
Daim qəlbimdəsən bir insan kimi.
Necə mehribansan, necə səmimi,
Ey xoşxasiyyətli Rəsulum mənim.
Həmyerlim, yaxınım, məzunum mənim.

Yaşasam da hansı yerdə, məkanda,
Xətrini çox istərəm bir daha da.
Şöhrətlisən doğma eldə - obada,
Ey xoşxasiyyətli Rəsulum mənim.
Həmyerlim, yaxınım, məzunum mənim.

Məhəbbətin tükənməsin, var olsun,
Oğlun da, qızın da görüm var olsun.
Firavan yaşasın, bəxtiyar olsun,
Ey xoşxasiyyətli Rəsulum mənim.
Həmyerlim, yaxınım, məzunum mənim.

Yaxşı bir hakimsən, üzügülümsər,
Qanuna söykənir bütün hökümlər.
Mən də şəninə yazıram şeirlər,
Ey xoşxasiyyətli Rəsulum mənim.
Həmyerlim, yaxınım, məzunum mənim.

Hakim kürsüsündə səni görəndə,
Öncə oxunur ədalət hökmündə.
Duyur bunu hər məhkum olunan da,
Ey xoşxasiyyətli Rəsulum mənim.
Həmyerlim, yaxınım, məzunum mənim.

20.03.2008

# ARİFƏ, AD GÜNÜN MÜBARƏK

Təbrikim var mənim sənə,
Ad gününə, şad gününə.
Xoş güzaran dilləm sənə,
Gəlləm sizə ad gününə.

Qırxsəkkizi vurdun başa,
Neçə illər vurdun başa.
Səni görüm yüz il yaşa,
Arzuların çatsın başa.

Eh, qırxsəkkiz nə yaşdır ki,
Görünürsən qızın kimi.
Parlayırsan lalə kimi,
Heç kim olmaz sənin kimi.

Təmiz qəlbli bir xanımsan,
Ötsə yaşın doxsanı da.
Cavan kimi görünürsən,
Saxla bunu hər an yadda.

Oxuyanda bu təbriki,
Uzaq qoyma bu naməni.
Küsər vallah nəğməkarın,
Uzaq qoysan bu naməni.

09.06.2008.

## BU DÜNYADA BİR QONAĞAM

Nə loğmanam, nə şairəm,
Sadəcə bir müəlliməm.
Doğma yurdda bir qəribəm,
Həm yerliyəm, həm qonağam.
Sormayın ki, hara getdi?
Bu dünyada bir qonağam.

Səksən yaşı vurdum başa,
Uzun yollar aşa – aşa.
Qismət olsun bu şans sizə,
Yüzcə yaşı vurun başa.
Sormayın ki, hara getdi?
Bu dünyada bir qonağam.

Ötdü illər qoşa – qoşa.
Haçan çatdım səksən yaşa?
Inanmıram mən bu yaşa,
Nə tez gəldi illər başa!
Sormayın ki, hara getdi?
Bu dünyada bir qonağam.

Olub – ötmüş keçmişləri,
Unutmuram bir an belə.
Görrəm sizi mən röyada,
Əyilmərəm heç vaxt yada.
Sormayın ki, hara getdi?
Bu dünyada bir qonağam.

Var qonağa el hörməti,
Mən duyuram bu hörməti.
Bu gün sizə mən qonağam,
Qürbətdəsə bir qəribəm.
Sormayın ki, hara getdi?
Bu dünyada bir qonağam.

Hər bir zaman düşür yada,
Əlli illik xidmət xalqa.
Inanıram qalar yadda,
Hər xidmətim doğma xalqa.
Sormayın ki, hara getdi?
Bu dünyada bir qonağam.

25.05.2008

# DANEL

*Könülün oğlu Danelə*

Danel əziz balamdır,
Gələcəyi parlaqdır.

Yaşı hələ çox deyil,
Danışmır heç də hələ.

Dindirəndə xoşlanır,
Tez qucağa atılır.

Böyük xalası Sona,
Qoymur onu darıxa.

Gündə onu gəzdirir,
Atıb – tutur şənlənir.

Radim görəndə onu,
Bağrına basır onu.

Doğrusun deyim sizə,
Olubdur vurğun ona.

Lətif bəyin nəvəsi,
Heyran edir hər kəsi.

Eşidilmir heç səsi,
İncitmir heç bir kəsi.

Könül çox sevir onu,
Gözdən də qoymur onu.

Uzaq olsa özündən,
Qedər vallah özündən.

İnam çoxdur Danelə,
O, bağlıdır anaya.

Tutur anasın əziz,
Hörmət edir əvəzsiz.

İqor darıxır yaman,
Nə görür alır ona.

Daneli görək kişi,
Özü görsün hər işi.

Maşın alsa babası,
Sevinc duyar anası.

Danel sürər maşını,
Hey dik tutar başını.

Xidmət edər babaya,
Gəzməz heç də piyada.

Baba baxıb sevinər,
Danelə əhsən deyər.

04.07.2008

## XOŞ SÖZLƏRLƏ GƏL YAŞADAQ INSANI

Bu dünyanın görmüşəm hər üzünü,
Dinlənmişəm kim deyibsə sözünü.
Vəfasızın itirmişəm izini,
İstəmirəm bir də görəm üzünü.
Xoş sözlərlə gəl yaşadaq insanı.

Sev Vətəni, sevin eli, obanı,
Ata-ana, qoca nənə, babanı.
Gəl uca tut səni sevən insanı,
Unutma sən qoca nənə, babanı.
Xoş sözlərlə gəl yaşadaq insanı

Çalış hər an diqqət yetir sözünə,
Odur insanı tanıdan elinə.
Acı söz gətirmə heç də dilinə,
Varlığınla tanıt özünü elinə.
Xoş sözlərlə gəl yaşadaq insanı.

Şirin sözlər gəlir zəhmətsiz başa,
Çəkinmədən de onu qoşa-qoşa.
Sevinc dolu hər arzun çatsın başa,
Yubilyara xoş sözlər qoşa-qoşa.
Xoş sözlərlə gəl yaşadaq insanı

Şirin-acı sözlər qalır xəyalda,
Acı sözlər yapışqandır yaxada.

Gəl yox edək bu zəhəri həyatda,
Şirin sözlə ömür sürək həyatda .
Xoş sözlərlə gəl yaşadaq insanı.

Keçər zaman haqlar səni qocalıq,
Xatırlarsan hər bir sözü babanın.
Ötər illər qapını döyər qocalıq,
Unutma sən heç sözünü babanın,
Xoş sözlərlə gəl yaşadaq insanı.

Saxla səndə bu naməni xatirə,
Oxu onu nəvənə, nəticənə,
Söylə məndən yadda qalan xatirə,
Hər bir kəsə həm də nəvə-nəticənə,
Xoş sözlərlə gəl yaşadaq insanı.

20.08.2008

## Doğma Vətənə ona görə gəlirəm ki...

*Dünyanın əşrəfi sayılan gözəl isanlarla ünsiyyətdə olum, onlarla xoş söhbət edim, əylənim, deyib – gülüm. Bu isə insanlarda nə qədər xoş əhval – ruhiyyə və gözəl təəssüratlar yaradır, insanın ömrünü uzadır.*

## İNSANI YAŞADAN ARZU, ISTƏKDIR

İnsanı yaşadan arzu, istəkdir,
Gözəl insanlarla söhbət etməkdir.
Şeytan xislətindən çalış uzaqlaş,
Əlləş tap özünə dost, həm də sirdaş.
Belə də uzanar bil, ömrün sənin,
Silinər qəlbindən bütün dərdi – sərin.

Paxıllıq hissidir qənim insana,
Azar gətirəndir o, qana, cana.
Rəhimli, xeyirxah olarsa insan,
Gülzara çevrilər bu güllü cahan.

09.08.2008

## BIR QIZ GÖRDÜM BAKIDA

Bir qız gördüm Bakıda,
Adı gəzir hər yanda.

Sevildir öz adı da,
Sevilir hər yerdə də.

Şirindir gülüşləri,
Oyundur hər işləri.

Yatıb – durur, əsnəyir,
Anasın çox istəyir.

Harda gəlir oturur,
Naz – qəmzə də eyləyir.

Nazına dözür hamı,
Sevir də onu hamı.

Babası Ağababa,
Sevinclə baxır ona.

Alır onu quçağa,
Çox sığal verir ona.

Atası Ramin ağa,
Ağlayanda Sevilcan,
Dərhal durur ayağa.

Bağrına basır onu,
Qoymur ağlaya onu.

Sevir Nurana onu,
Gözdən heç qoymur onu.

Ilham tutur əlini,
Sığallayır telini.

Atıb – tutur şənlənir,
Sevincdən fərəhlənir.

Hey, Kəmalə nənəsi,
Görmək istər nəvəsin.

Vurğundur vallah ona,
Nə görür alır ona.

Dayısı Cümşüd bala,
Düşünür bala – bala:

-"İnşallah Sevil bala,
Deyəcək dayı mənə."

Bibisi Ətir isə,
Bilmir nə etsin ona.
Şirin – şəkər Sevilə,
Gözəl – göyçək Sevilə.

Əmisi Amil əmi,
Çox istəyir bu qızı.

Ramin qızı Sevili,
Qara gözlü Sevili.

Həsr etdi şeri ona,
Qürbətdə böyük baba.

Nuran qızı Sevilə,
Qardaş diləyir baba.

05.09.2008
Bakı – Munxen - Bakı

## EMİLYA

*Ramizin sevimli qızına ithaf*

Sən qönçəsən, həm şərəfsən,
Gözəl, göyçək bir xanımsan.
Arzuların ümman qədər,
Görməyəsən ziyan-zərər.

Ləyaqətdə lap öndəsən,
Kuhin bəyin övladısan.
Çox qayğılı bir anasan,
Öz adınla tanınırsan.

Evdarlıqda birincisən,
Qonaqpərvər bir qadınsan.
Yeməklərin, şirniyyatın,
Adı, dadı, görkəmləri,
Olubdur dillər əzbəri.

Söz deməkdə, mərifətdə,
Deyim sənə, yaxşı qızım.
Xanımlıq da! O da səndə.
Unutma sən bunu, qızım.

Örnək ol sən nadanlara,
Dili uzun insanlara.
Özün "mələk" sayanlara,
Qalma-qalı sevənlərə.

Qazanmışsan qəlblərdə sən,
Hörməti sən, sevgını sən.
Duruşunla, baxışınla,
Çox məzəlı söhbətinlə,
Böyüklərə hörmətinlə.

05.09.2008

## EMİLYA

*Ramizin sevimli qızına ithaf*

Sən qönçəsən, həm şərəfsən,
Gözəl, göyçək bir xanımsan.
Arzuların ümman qədər,
Görməyəsən ziyan-zərər.

Ləyaqətdə lap öndəsən,
Kuhin bəyin övladısan.
Çox qayğılı bir anasan,
Öz adınla tanınırsan.

Evdarlıqda birincisən,
Qonaqpərvər bir qadınsan.
Yeməklərin, şirniyyatın,
Adı, dadı, görkəmləri,
Olubdur dillər əzbəri.

Söz deməkdə, mərifətdə,
Deyim sənə, yaxşı qızım.
Xanımlıq da! O da səndə.
Unutma sən bunu, qızım.

Örnək ol sən nadanlara,
Dili uzun insanlara.
Özün "mələk" sayanlara,
Qalma-qalı sevənlərə.

Qazanmışsan qəlblərdə sən,
Hörməti sən, sevgını sən.
Duruşunla, baxışınla,
Çox məzəlı söhbətinlə,
Böyüklərə hörmətinlə.

05.09.2008

## MUNDƏRİCAT


Müəllifdən ........................................ 3
İlk şeir kitabının müəllifi Əsail Ağayev haqqında bir neçə söz ........................... 4
Unutmuram ........................................ 8
Şirin dildir ........................................ 9
Qəriblik üzür məni ............................... 10
Yazmasaydım şeirləri .......................... 11
Gəzdikcə duyuram vətəni hər an ............ 12
Bu, şöhrət gətirər Azərbaycana .............. 13
Arifə qızım ........................................ 14
Allah verib onu bizə ............................ 15
Davidin ərzi ........................................ 16
Faiq əmi ........................................ 18
Oldu yaşın əlli iki ............................... 19
İnamımız çoxdur sənə .......................... 20
Kəmalə ........................................ 22
Mərhum Rza qardaş ............................ 24
Olun hər an bax beləcə ........................ 26
Olun daim aramızda ............................ 28
Mən hiss etdim ki ............................... 30
Orxan Rafiq oğlu ................................ 31
Kübra ........................................ 33
Emir nəvəm, gül nəvəm ....................... 34
Kiçik qardaş. Ağa qardaş ..................... 35
Əlli yaşın mübarək ............................. 37
Sona ana ........................................ 39
Qardaşlar ........................................ 40
Ramiz Eminoğluya ............................... 41
Ay mənim Günel qızım ........................ 43

Ramiz sevir «duzlu» sözü ....................... 44
Telman – güvənc yerimiz ....................... 45
Telman Mərdan oğlu- xalqın mərd oğlu ... 46
Telman qardaş, ad günün mübarək ......... 48
Bilal qızı, Ayan xanım ........................ 49
Bala Cümşüd ........................................ 51
Gəl eşidək şirin söz .............................. 53
Düz danışan utanmaz ........................... 55
Lətifə bala, Lətifə ................................ 57
Ayala, ay Ayala .................................... 59
Uca tut hər zaman ədəb-ərkanı .............. 61
Olmuşam ............................................... 63
Dostu heç də unutmaram ...................... 64
Kiçik Faiq və Şaiqi sevir qəlbən baba Faiq 66
Qardaşım Yəhyanın əziz xatirəsinə ......... 67
Məzunum mənim .................................. 69
Arifə, ad günün mübarək ...................... 71
Bu dünyada bir qonağam ...................... 72
Danel .................................................... 74
Xoş sözlərlə gəl yaşadaq insanı .............. 76
İnsanı yaşadan arzu, istəkdir ................. 78
Bir qız gördüm Bakıda ......................... 79
Emilya .................................................. 82